# ELMİ TƏDQİQATLARDAN NEFT MUZEYİNƏ DOĞRU

***Məlum olduğu kimi, cari ilin yayında Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) «Elm Fondu» Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) çalışan alimlər və onlarla birgə layihələrdə icraçı qismində iştirak edəcək SOCAR-ın əməkdaşları üçün müsabiqə elan edib. Müsabiqəyə alimlər tərəfindən humanitar və ictimai elmləri əhatə edən müxtəlif layihələr təqdim olunub.***



Layihələrdən biri ideya müəllifi olduğumuz və təklifimiz qəbul edilsə icraçısı olacağımız «Dünyanın neft muzeyləri. Azərbaycan muzeylərində qorunan neft salnaməsi» adlanır. Əsasən humanitar elmləri əhatə edən layihənin prioritet istiqamətini neft sahəsi üzrə fəaliyyətin (peşənin) təbliği, bu istiqamətdə maarifləndirmənin tədqiqi təşkil edir. Araşdırmaların muzeyşünaslıq, kulturologiya, sənətşünaslıq və tarix elmlərinin qovşağında yerinə yetirilməsi nəzərdə tutulub.

Neft dünyanın bir çox ölkələrinin, o cümlədən Azərbaycanın inkişafında mühüm yer tutur. Qürurverici haldır ki, neft sənayesi tarixində bir sıra mühüm ilklərə məhz Azərbaycanda imza atılıb. Dünyada ilk dəfə dənizdə neft hasilatı (1803-cü il, Hacı Qasımbəy Mənsurbəyov, Bibiheybət buxtası), dünyada sənaye üsulu ilə qazılan ilk neft quyusu (1846-cı il, Bibiheybət), 1899-cu ildə Azərbaycanın neft hasilatı və emalı üzrə dünyada birinci yerə çıxması və dünya neft hasilatının yarısının ölkəmiz tərəfindən yerinə yetirilməsi, dünyanın faşizmdən xilasında Azərbaycan neftinin əhəmiyyətli rolu — bütün bunlar respublikamızın dünya neft sənayesinə verdiyi misilsiz töhfələrin kiçik bir hissəsidir.

Neft sahəsinə dair məlumatlar müxtəlif müəssisələrdə, o cümlədən muzeylərdə qorunub saxlanılır. Layihənin yekununda «Dünyanın neft muzeyləri. Azərbaycan muzeylərində qorunan neft salnaməsi» adlı monoqrafiyanın nəşri planlaşdırılır (ad şərtidir, araşdırma zamanı qismən dəyişə bilər). Layihənin elmi əhəmiyyəti dünyanın neft muzeylərində və yerli muzeylərdə qorunan neft sahəsi üzrə muzey əşyalarının ümumiləşdirilmiş və sistemləşdirilmiş şəkildə məlumat bazasının yaradılması, dünya təcrübəsinin təhlili və Azərbaycan reallıqlarına uyğunlaşdırılaraq müvafiq təkliflərin hazırlanmasından ibarətdir. Layihənin əsas praktiki əhəmiyyəti gələcək Neft muzeyi üçün dolğun materialların toplanmasıdır. Monoqrafiya bu işdə bir növ bələdçi funksiyasını yerinə yetirə bilər.

Həmçinin monoqrafiya hazır olandan sonra layihənin ikinci mərhələsinin icrası nəzərdə tutulur. İkinci mərhələdə bütün toplanan muzey əşyalarının 3 dildə vahid rəqəmsal məlumat bazasının yaradılması planlaşdırılır. Burada həm ölkə muzeylərində qorunan materiallar, həm də dünyanın neft muzeylərində qorunan müvafiq məlumatlar öz əksini tapmalıdır. Rəqəmsal vahid məlumat bazasının yaradılması gələcəkdə həm elmi-tədqiqat və tədris prosesinə öz müsbət təsirini göstərəcək, həm geniş ictimaiyyət arasında neft sahəsinə dair biliklərin yayılmasına, yeni maarifləndirmə işinə əhəmiyyətli töhfə olacaq, həm də yaradılacaq Neft muzeyi üçün mükəmməl elmi baza qismində çıxış edəcək.

Qeyd etmək yerinə düşər ki, müasir dövrün çağırışlarından biri biliklər cəmiyyətlərinin formalaşdırılması və inkişafıdır. Bu prosesdə muzeylərin rolunun araşdırılması, respublika muzeylərinin müasir dövrün tələblərinə uyğunlaşdırılması məsələsinin önə çıxarılması qarşıda duran mühüm vəzifədir. Bu məsələ ilə əlaqədar tədqiqatlar böyük önəm və aktuallıq kəsb edir.

Dünyada onlarla neft muzeyi fəaliyyət göstərir. Azərbaycan neftinə dair materiallar tək ölkəmizin deyil, dünyanın bir sıra muzeylərində də qorunur və nümayiş etdirilir. Dünyanın neft muzeylərinin yaranma və inkişaf tarixi, həmin müəssisələrdə və ölkə muzeylərində qorunan müvafiq materiallar ilə bağlı ümumiləşdirilmiş tədqiqatın aparılması həm beynəlxalq təcrübənin öyrənilməsinə, həm yeni faktların üzə çıxarılmasına xidmət edəcək, nəticədə hazırlanacaq monoqrafiya isə gələcəkdə yeni tədqiqat işlərinə təkan verəcək, həmçinin ölkəmizdə Neft muzeyinin yaradılması prosesində istifadə oluna biləcək. Muzey sahəsi üzrə, o cümlədən dünyanın neft muzeylərinə aid ana dilimizdə məlumat bazası olduqca zəifdir. Mövcud boşluğu qismən də olsa, aradan qaldırmaq məqsədilə müxtəlif muzeylərə aid materialların Azərbaycan dilinə tərcümə edilərək təqdim olunması həm elmi-tədqiqat, həm də tədris prosesi üçün böyük aktuallıq kəsb edir.

Kitabxana və arxivlərlə yanaşı maddi və qeyri-maddi mədəni irs nümunələrinin əsas toplanma, sənədləşmə, mühafizə, öyrənilmə və nümayiş yerləri muzeylərdir. Bəşəriyyət inkişaf etdikcə muzeylər də inkişaf edir. Bu gün sözügedən müəssisələr yalnız mədəni və elmi sərvətlərin saxlanc yerləri deyil, həmçinin ictimai və mədəni həyatın fəal iştirakçılarıdır. Orta əsr muzeylərindən fərqli olaraq, müasir muzeylərin dəfələrlə çox funksiyası var.

Muzeylərin genişlənən ictimai funksiyalarını nəzərə alaraq, biz bu elm və mədəniyyət ocaqlarının fəaliyyətini biliklər cəmiyyətinin formalaşmasının tərkib hissəsi kimi araşdırırıq. Qlobal problemlər dövründə biliklər cəmiyyətinin formalaşmasını tədqiq edərkən və müvafiq ədəbiyyatı araşdırarkən görürük ki, bir çox alimlər qlobal problemlərin əsasında yalnız ekoloji, siyasi səbəblərin deyil, daha çox psixoloji, kulturoloji səbəblərin dayandığını, bu problemlərin insan qəddarlığı və laqeydliyi, insanların bir-birinə və ətraf mühitə qarşı acımasız davranışından qaynaqlandığını qeyd edir. Buna görə də mütəxəssislər qənaətə gəlir ki, bu problemlərin həllində mədəniyyətin, həm fərdi, həm də ümumilikdə cəmiyyətlərin mədəni tərbiyyəsinin rolu böyükdür. Fikrimizcə, müasir dövrümüzdə biz yalnız elm və təhsilin inteqrasiyası haqqında deyil, bu termini genişləndirərək elm, təhsil və mədəniyyətin inteqrasiyası haqqında danışmalıyıq.



Kreativ iqtisadiyyatın formalaşması bir sıra digər sahələrlə yanaşı turizm sektorunun inkişafı ilə sıx bağlıdır. Turizm potensialının səmərəli istifadəsi isə digər məsələlərlə yanaşı muzeylərin dövrün tələblərinə uyğun fəaliyyəti ilə əlaqədardır. Unutmayaq ki, ölkə başçısının COP29-un açılış mərasimində qeyd etdiyi «neftdən asılı olmayan gəlirlərin» əldə olunmasına yönələn əsas addımlardan biri məhz turizmin inkişafıdır. Bu gün turizm dünyanın aparıcı ölkələrində iqtisadiyyatın əsas sahələrindən biridir. Buna görə də respublikada muzey quruculuğunun inkişafı, ölkə muzeylərinin işində müasir texnologiyaların geniş tətbiqi, muzeylər tərəfindən insanların maarifləndirilməsinə yönələn layihələrin həyata keçirilməsi, mədəni asudə vaxtın təbliğ və təmin edilməsi və eyni zamanda əlavə maliyyə vəsaitinin əldə olunması — bütün bu məsələlər xüsusi aktuallıq kəsb edir. Post-pandemiya dövründə turizmin genişlənməsinə gətirib çıxara biləcək əsas amillərdən biri müasir texnologiyalardan düzgün istifadə sayılır.

Biliklər cəmiyyətinin formalaşmasında muzeylərin rolu onların yalnız turizmin inkişafında iştirakı ilə məhdudlaşmır. Sözügedən cəmiyyətdə həm elm, təhsil və mədəniyyətin inteqrasiyası baş verir, həm də elmi və texniki biliklərin istifadə mexanizmləri əsaslı şəkildə dəyişir, başqa sözlə desək, elm, təhsil və istehsalatın inteqrasiyası təmin olunur. Beynəlxalq təcrübə göstərir ki, sadaladığımız proseslərdə də muzeylər əsas iştirakçı qismində çıxış edir.

Beləliklə, ölkə başçısının «neft kapitalını insan kapitalına çevirək» çağırışını rəhbər tutaraq Azərbaycanda biliklər cəmiyyəti, biliklər iqtisadiyyatı və onun mühüm tərkib hissəsi olan kreativ iqtisadiyyatın inkişafı qarşımızda duran prioritet məsələlərdəndir. Buna görə də elmi nailiyyətlər, aparılan tədqiqat və təcrübələrin nəticələri haqqında məlumatların geniş ictimaiyyətə çatdırılması, yeni maarifləndirmə işinin aparılması böyük əhəmiyyət və aktuallıq kəsb edir. Muzeylər bu işdə mühüm rol oynayır, çünki muzey fəaliyyətinin əsas istiqamətlərindən biri məhz maarifçilikdir. Mütəxəssislər qeyd edir ki, informasiya axınının durmadan artdığı dövrümüzdə cəmiyyətin həqiqəti əks etdirən, dolğun və anlaşılan dildə təqdim olunan məlumatlara olduqca böyük ehtiyacı var. Universitetlər və elmi-tədqiqat müəssisələri ilə yanaşı uzun illər boyu bəşəriyyətin təkamül təcrübəsini toplayan və nümayiş etdirən muzeylər bu cür məlumatların əvəzolunmaz mənbələridir. Akademik müəssisələrdən fərqli olaraq muzeylər geniş ictimaiyyət üçün daha əlçatan məkanlardır. Buna görə də muzeylərin tədris sahəsində imkanları çoxşahəlidir, bu mədəniyyət ocaqları tarixi-mədəni irs obyektləri ilə mədəni kodları qəbul edən subyektlər, yəni ziyarətçilər arasında unikal vasitəçilərdir.

İlkin araşdırmalarımıza əsasən, dünyada 200-ə yaxın neft sahəsinə aid muzey və sərgi mərkəzləri fəaliyyət göstərir. Neft hasilatı, emalı və ixracı ilə məşğul olan bir çox ölkələrdə kiçik və iri neft muzeyləri yaradılıb. Bu muzeylərin fəaliyyəti neftlə bağlı irsin tədqiqatçılar və gələcək nəsillər üçün əlçatan olmasına yönəlib. Neft muzeyləri XX əsrin ikinci yarısından başlayaraq daha çox yaranmağa başlayıb, son dövrlərdə isə muzey fəaliyyətində rəqəmsal texnologiyaların tətbiqi və İnternet məkanında fəal təmsil olunmaq tendensiya halını alıb.

Neft sahəsində bir sıra ilklərə imza atan Azərbaycanda iri Neft muzeyinin mövcud olmaması təəccüb doğurmaya bilməz. Əminik ki, yaxın gələcəkdə bu məsələ öz praktiki həllini tapacaq. Təklif etdiyimiz layihə həm biliklər cəmiyyətlərinin formalaşmasında və kreativ iqtisadiyyatın inkişafında müasir muzeylərin yerinin müəyyənləşdirilməsinə, həm də ümumiləşdirilmiş vahid məlumat bazasının yaradılmasına yönəlib. Araşdırmalar zamanı biz dünyanın neft muzeyləri ilə əlaqə yarada, bu müəssisələrin fəaliyyəti və muzeylərdə qorunan müxtəlif səpkili muzey əşyaları, o cümlədən Azərbaycan neftinə aid materiallar haqqında məlumatlar əldə edəcəyik. Layihə çərçivəsində gələcəkdə yaradılacaq Neft muzeyinin ilkin konsepsiyası üçün elmi əsaslandırılmış təkliflərin hazırlanması da nəzərdə tutulur.

***Nəzmin CƏFƏROVA,***
**sənətşünaslıq üzrə fəlsəfədoktoru (AMEA).**

**Fotolarda**: *Beynəlxalq Neft Muzeyi və Sərgisi, ABŞ; Villa Petrolea, Nobel qardaşlarının ev-muzeyi, Azərbaycan.*